# AZƏRBAYCAN DÖYÜŞ MEYDANINDA OLDUĞU KİMİ, DANIŞIQLAR MASASINDA DA SÖZ SAHİBİDİR



**Ulu öndər Heydər Əliyev siyasətini uğurla həyata keçirən, sərkərdəlik məharəti və diplomatik istedadı sayəsində Azərbaycanın ərazi bütövlüyünü təmin edən, tarixi Zəfərin memarı, Müzəffər Ali Baş Komandan İlham Əliyevə xalqımızın inamı sonsuzdur.**

Vətən torpaqlarının düşmənin otuz illik işğalından qurtarılmasından ilyarım vaxt keçir. Bu müddət müstəqillik tariximizin ən şərəfli və qürurlu dövrü kimi yaddaşımıza əbədi həkk olunub. Xalqımızda doğma ölkəsinin istiqlalına, tərəqqisinə nail olmaq əzmi necə qətiyyətli idisə, bu dövrdə vəhşicəsinə dağıdılıb viran edilmiş şəhər və kəndlərimizi qısa zamanda yenidən qurub məskunlaşdırmaq əşqi də o qədər yüksəkdir. 44 günlük Vətən müharibəsi zamanı biz Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin son dərəcədə yüksək rəhbərlik və komandanlıq məharəti, xalqımızın və rəşadətli ordumuzun mətanət və qəhrəmanlığı ilə qürur duyduq, bir millət kimi böyüklüyümüzü dərk etdik. Keçən illər ərzində ulu öndər Heydər Əliyevin daxili və xarici siyasət strategiyasının uğurla davam etdirilməsinin və zamanın yeni çağırışlarına uyğun olaraq zənginləşdirilməsinin əməli bəhrəsini gördük: "Xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim!" - deyən Azərbaycan Prezidentinin polad iradəsi, "Dəmir yumruğu" ətrafında birləşdik. Eyni zamanda, dövlət başçımızın şəhidlərimizin ruhuna dərin ehtiramının və qazilərimizə qayğısının şahidi olduq. Cənab Prezident 44 günün hər anında qələbəni təmin etməklə, xalqı və ordunu tarixi Zəfərə kökləməklə və hər axşam qələbə müjdəsi verməklə xalq-iqtidar birliyini daha da möhkəmləndirir, həm hərbi sahədə, həm də diplomatiya cəbhəsində əsl qəhrəmanlıq nümayiş etdirirdi. Təcavüzkar Ermənistan dövlətinin uzun illər davam edən işğalçılıq siyasətinə qarşı 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi xalqımıza tarixən xas olan igidlik və mərdlik xüsusiyyətlərini parlaq şəkildə üzə çıxardı və bütün dünyaya nümayiş etdirdi.

Koronavirus pandemiyasının bütün dünyanı sarsıtdığı bir zamanda Azərbaycan dövləti elə bir çeviklik və müdrik siyasət nümayiş etdirdi ki, səfərbərliyimiz möhkəm, iradəmiz yenilməz, itkimiz az oldu. Azərbaycan daha qəddar, rəzil, riyakar bir "virusa" qarşı döyüşdü və erməni aqressiyasına qalib gəlmək üçün həm döyüş meydanında, həm də diplomatik müstəvidə lazım olanın hamısını reallaşdırdı. Ölkə Prezidenti cənab İlham Əliyev bütün dünyada dövlətimizin, millətimizin haqqını, xalqımızın həyat eşqini, iradəsini, məqsədini, mütərəqqi arzularını, Vətən, torpaq sevgisini müdrik, ardıcıl siyasəti, yüksək qabiliyyəti, diplomatik gedişləri ilə nümayiş etdirdi.

Uzun illər Azərbaycanın evsahibliyi etdiyi, hər dövlətə müyəssər olmayan peşəkarlıqla təşkil olunmuş müxtəlif istiqamətli tədbirlərdə millətə məxsus qonaqpərvərliyə və bunların fövqündə sarsılmaz vətənpərvərliyə nəinki xalqlar, hətta dövlət rəhbərlərinin özləri də şəxsən şahid oldular. Bu tərəqqi Azərbaycanın bütün sahələrində, həm də ən böyük prinsipiallıqla Azərbaycan Ordusunun müasir quruculuğunda özünü göstərdi. Azərbaycan bütün məqsədləri, sürətli inkişafı ilə sanki zamanı qabaqlamaq iddiasını ortaya qoydu. Bir zamanlar əlçatmaz və xəyal kimi görünən ən möhtəşəm layihələr tez bir zamanda real həyatda öz təsdiqini tapdı.

Müxtəlif yönümlü sammitlər, dialoqlar, humanitar beynəlxalq forumlar, idman yarışları, müsabiqələr Azərbaycanın imkanlarını əyani surətdə nümayiş etdirdi. Belə bir ölkənin bu yüksəlişə çatması üçün onun liderinin, xalqının hansı mərhələlərdən uğurla keçdiyini əyani olaraq isbat etdi. Bu yüksəlişdə müharibə arzusu, başqalarının bir qarış torpağına belə sahib çıxmaq həvəsi yox idi. Bütün bunlar öz torpağında əks-hücuma keçən Azərbaycan Ordusunun düşmən üzərində qələbə çalmaq kimi missiyasını həyata keçirmək naminə, özünün haqq savaşında dünya dövlətlərinin dəstəyini almaq istəyi ilə bağlı idi. Artıq ilyarıma yaxındır ki, biz bu arzumuza qovuşmuşuq.

Dövlət başçımız İlham Əliyev "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirakı zamanı yerli televiziyalara müsahibəsində, BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda tutarlı cavabları ilə Ermənistanın təcavüzkar siyasətini, yalana söykənən əsassız təbliğatını ifşa etməklə yanaşı, dünyaya bu reallığı da çatdırdı ki, Ermənistan açıq təxribatları ilə yenidən müharibəyə hazırlaşır. Həmçinin dövlət başçısı Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edərkən regionun təhlükəli bir məkana çevrildiyini önə çəkərək diqqəti Ermənistanın Azərbaycana qarşı davamlı hərbi təxribatlarına yönəltmiş və bildirmişdir ki, onlar Azərbaycana hücum edə, dövlət sərhədini keçə və yeni əraziləri işğal edə biləcəklərini düşünürlər. Bu, Ermənistanın müdafiə nazirinin bəyanatına müvafiqdir. O, bu bəyanatı Amerika Birləşmiş Ştatlarında olarkən vermişdir və demişdir ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə başlayacaq. Bu, Ermənistanın təcavüzkar davranışının davam etməsini aydın nümayiş etdirirdi.

Ermənilərin 2020-ci il 27 sentyabrdakı təxribatı göstərdi ki, cənab Prezident Ermənistanın bundan əvvəl də törətdiyi çoxsaylı təxribatların məqsədini ən yüksək səviyyələrdə bəyan etməkdə və beynəlxalq təşkilatlardan işğalçı dövlətə bunun qarşısını almaq üçün təsir göstərilməsini tələb etməkdə tam haqlı idi.

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutdu. Bunun nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər və yaralananlar oldu. Bu, bir daha onu göstərdi ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir. Ölkə Prezidenti cənab İlham Əliyev sentyabrın 27-də xalqa müraciətində, eyni zamanda, Təhlükəsizlik Şurasının iclasında bir daha törədilən təxribatların mahiyyətini açıqlayaraq bildirmişdir ki, dinc əhaliyə qarşı qəddarlıq faşist dövlətlərə aid olan bir siyasətdir. 1992-ci ildə törədilən, tarixə XX əsrin ən dəhşətli soyqırımı kimi yazılan Xocalı faciəsi erməni vəhşiliyinin tarixdən heç zaman silinməyən göstəricisidir. Bu faciə erməni vəhşiləri tərəfindən əliyalın dinc əhaliyə qarşı törədilmiş qaniçən bir millətin sərhədi görünməyən vəhşiliyi idi.

Möhtərəm Prezidentimiz İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında bildirmişdi: "Mən Ermənistana Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir". Cənab İlham Əliyev bu bəyanatı da səsləndirmişdir ki, biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyilik. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın.

Döyüş meydanında tarixi Zəfər əldə etmiş Azərbaycan diplomatik mübarizədə də qələbə qazanan tərəfdir. Ölkəmizin iqtisadi və maliyyə imkanlarının genişlənməsi bütün sahələrdə, əsasən ordu quruculuğu istiqamətində mühüm addımların atılmasını şərtləndirir. Eyni zamanda, dövlət büdcəsindən ayırmalarda müdafiə xərcləri əsas yer tutur. Bu da təbiidir. Müharibə şəraitində yaşayan ölkə üçün güclü, qüdrətli Ordunun olması vacib amillərdəndir. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev vaxtilə bildirmişdir ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü Ordunun olması vacibdir. Azərbaycanın ordu quruculuğu istiqamətində atdığı addımlar, müdafiə xərclərinin artırılması hər zaman işğalçı Ermənistanı narahat edir. Ermənistan hakimiyyəti bunu hər zaman beynəlxalq ictimaiyyətə Azərbaycanın sülh danışıqlarında maraqlı olmaması kimi təqdim etməyə çalışıb. Azərbaycan Prezidenti cənab İlham Əliyev ən yüksək tribunalardan bəyan etmişdir ki, Azərbaycanın müdafiə qabiliyyətini gücləndirməsi onun suveren hüququdur, bunun sülh danışıqlarından imtina etməyə heç bir aidiyyəti yoxdur. Eyni zamanda, Azərbaycan artan maliyyə imkanlarını müdafiə ilə yanaşı, digər istiqamətlərə də yönəldir.

İşğal altında olmuş torpaqlarımızın azad edilməsi, şəhidlərimizin ruhu qarşısında borcumuzun yerinə yetirilməsi demək idi. Azərbaycanın ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad olunması yolunda canından keçən şəhidlərimizin qanının yerdə qalmayacağını bəyan edən möhtərəm Prezidentimiz İlham Əliyev böyük qətiyyətlə və inamla bildirirdi ki, biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Bəlkə indiyə qədər Azərbaycan dilində özünəməxsus missiyası olan nida işarəsi heç bir zaman belə qətiyyətli görünməyib, çünki "Qarabağ Azərbaycandır!" hökmü ölkə rəhbərinin dilində israrla, qətiyyətlə, inamla təsdiq edildi.

**Emin QASIMOV,**
**"Respublika".**